## EKVADORDA SOSİALİZM QURMAQ İSTƏYƏN PREZİDENT QALİB GƏLDİ

*Ekvadorda keçirilən prezident seçkilərinin rəsmi nəticələri açıqlanıb*



İTAR-TASS agentliyinin verdiyi məlumata görə, Rafael Korrea 57,79 faiz səslə yenidən Ekvadorun prezidenti seçilib.

Rafael Korrea ilk dəfə 2006-cı ildə bu posta seçilib. O, 2006-cı ildə Ölkə Alyansı Hərəkatını yaradıb, sol qüvvələrlə, o cümlədən kommunistlərlə bir sıra sazişlər imzalayıb. Hakimiyyətə gələndən sonra isə "vətəndaş inqilabı" kursunun həyata keçirilməsinə başlayıb.

Rafael Korrea neoliberal iqtisadi doktrinanın qəti əleyhdarıdır və xüsusi inkişaf modelinin - XXI əsrin sosializminin yaradılması tərəfdarı kimi çıxış edir.

## MİSİR FRANSADAN "TƏHQİRAMİZ" HEYKƏLİN SÖKÜLMƏSİNİ TƏLƏB EDİR

*Misirin Tarixi Abidələr Nazirliyi Fransa hökumətini Jan-Fransua Şampolyonun Parisdə ucaldılmış heykəlini demontaj etməyə çağırmışdır*

Müasir misirşünaslığın banisi, ilk dəfə heroqlifləri oxumuş alimin abidəsini 1875-ci ildə Frederik-Oqyust Bartoldi yaratmışdır.

Nazirlik alimin sol ayağının fironun başının üstünə qoymasından hiddətlənən Misir arxeoloqlarını dəstəkləmişdir. Onların fikrincə Qədim Misir mədəniyyətinin bu cür alçaldılması fransız xalqını biabır edir. Bu günahı yalnız abidənin götürülməsi yuya bilər.

Turizm və qədim abidələr departamentinin sədri Ömər əl-Hədari Misir rəhbərliyini fransız arxeoloqlarının qazıntılarda iştirakına qadağa qoymağa çağırmışdır. O, həmçinin Fransa hökumətinin rəsmən üzr istəməsini tələb etmişdir.

Misirin tarixi abidələr naziri Məhəmməd İbrahim "Əl-Əhram" qəzetinə bildirmişdir ki, Misir Fransanın Mədəniyyət Nazirliyinə və bu ölkənin Qahirədəki səfirliyinə rəsmi şikayət məktubu göndərmişdir. Fransa hökuməti hələlik məsələni şərh etmir.

Nazir qeyd etmişdir ki, Bonapartın misir ekspedisiyası iki ölkə arasında əlaqələrin möhkəm bünövrəsini qoymuşdur, lakin abidə bu əlaqələrə təhlükə yaradır. M.İbrahim demişdir: "Mən yaradıcılıq azadlığını dəstəkləyirəm, amma qədim mədəniyyətimizə ləkə gətirən məsələyə göz yummaq olmaz".

## PAPA VATİKANDAN GETDİ, YENİ PAPA SEÇİLDİ

*Roma papası XVI Benedikt fevralın 28-də səlahiyyətlərini rəsmən başa çatdırıb*



Həmin gün o, Vatikanda 100-dən çox kardinalla bir araya gəlib, iqamətgahı qarşısında toplaşanlara xeyir-dua verib və Roma vilayətinin Kastel Qandolfo şəhərinə yollanıb. XVI Benedikt ömrünün sonuna kimi həmin şəhərdə yaşamaq niyyətindədir.

XVI Benedikt katolik kilsəsinə 2005-ci ilin aprelindən rəhbərlik edirdi. Fevralın 11-də o, yaşlandığını, kilsəni idarə etmək üçün kifayət qədər gücünün olmadığını vurğulayaraq istefa verib.

Roma papasının iş otağı yeni canişin təyin olunana qədər möhürlənib. İstefa vermiş XVI Benediktin 85 yaşı var. O 8 il müddətində katolik kilsəyə rəhbərlik edib.

Martın 15-də kotdinalların konklavında argentinalı Xorxe Mario Berqalio yeni Papa seçilmişdir.